**Ötən əsrin son on illiyində dövlət müstəqilliyini bərpa edən respublikamızda qarşıya qoyulan prioritet vəzifələrdən biri də beynəlxalq aləmə inteqrasiya etmək, əlaqələri genişləndirmək olub. Lakin erməni lobbisinin və anti-Azərbaycan qüvvələrin ölkəmiz haqqında yaydıqları yalan və saxta informasiyalar, uydurmalar bu əməkdaşlığa mane olurdu. Müstəqilliyimizin ilk illərində ölkəyə rəhbərlik edənlər informasiaya blokadısını yara bilmədilər. Ölkəmizdə baş verən hadisələr barəsindəki xəbərlər informasiya blokadasını yarıb keçə bilmir, səsimiz eşidilmir və həm də buna görə məğlub olurduq.**

# Bu gün Azərbaycan həqiqətləri dünyanın hər yerinə çatır



## İnformasiya blokadası necə yarıldı?

Erməni faşistlərinin törətdikləri Xocalı soyqırımı, digər dəhşətli terror aktları barədə dünya ictimaiyyətinə müfəssəl məlumat verilmir, günahkar yenə də biz olurduq. 1990-cı il Qanlı Yanvar hadisəsi baş verəndə ulu öndər həmin vaxt Azərbaycanın Moskvadakı Daimi Nümayəndiliyinə gedərək, mətbuat konfransı keçirməsəydi və həmin qətliam barəsində ətraflı məlumat verməsəydi, dünya ictimaiyyəti bu faciənin kim tərəfindən törədilməsindən, qətlə yetirilən və şikəst edilən dinc əhalinin ümumi sayından məlumatsız olacaqdı. Eləcə də digər erməni vandalizmi barədə ictimaiyyət məlumatsız qalacaqdı.

1991-ci il noyabrın 20-də Xocavənd rayonunun Qarakənd kəndinin yaxınlığında, Ağdam rayonunun Mərzili kəndi ərazisində erməni hərbi dəstələri tərəfindən Azərbaycan hərbi helikopterinin vurulması hadisəsini xatırlatmaq yerinə düşərdi. Həmin hadisəni günlərlə gizli saxladılar və guya, helikopterin dağa çırpıldığını dedilər. Sonralar məlum oldu ki, bu terror hadisəsi ermənilər tərəfindən törədilib.

Azərbaycanın informasiya blokadasını yarması, yeni müstəviyə daxil olması, müstəqil dövlətimizin beynəlxalq aləmə inteqrasiyası, dünyada tanıdılması, güclü lobbisinin məkrli səyləri nəticəsində düşdüyü informasiya blokadasından çıxarılması məhz Heydər Əliyevin qətiyyəti sayəsində mümkün oldu. Ulu öndər 1993-cü ildə Prezident kimi özünün ilk xarici səfərini Fransaya etmişdi və həmin vaxt Parisdə keçirdiyi mətbuat konfransında informasiya blokadasını yardı. Ulu öndər həmin mətbuat konfransında demişdir ki, Fransada Azərbaycan barəsində məlumat olduqca azdır. Bəzən qeyri-obyektiv məlumat ölkəmiz, Azərbaycan dövlətinin tədbirləri barədə yalan-yanlış təsəvvür yaradır. Bu səfərə qədər həm ölkəmizdəki, həm də respublikadan kənardakı ermənipərəst qüvvələr Azərbaycanın əleyhinə təbliğatları ilə xəbis niyyətlərinə çatmağa çalışırdılar. Ancaq ulu öndərin həm Fransada, həm də ondan sonrakı səfərlərində, o cümlədən beynəlxalq tədbirlərdəki çıxışlarında səsləndirdiyi fikirlər, verdiyi bəyanatlar, dünyanın aparıcı kütləvi informasiya vasitələrinə verdiyi müsahibələrində Azərbaycanın siyasi strategiyasını və regiondakı siyasi vəziyyəti düzgün qiymətləndirməyə imkan yaratdı. Ermənilərin və onların havadarlarının yalan informasiya maşınları tədricən sıradan çıxdı. Bundan sonra ölkəmiz haqqında həqiqətlər dünyaya olduğu kimi çatdırıldı. Həqiqətən də, ulu öndər bu sahədə o vaxt heç kəsin – nə siyasətçilərin, nə təbliğat qurumlarının, nə də kütləvi informasiya vasitələrinin görə bilmədiyi işi gördü. Müdrik şəxsiyyətin siyasi uzaqgörənliyi sayəsində Azərbaycan dünya informasiya məkanında layiqli yerini tutdu.

## Azərbaycan həqiqətləri dünya mediasında

Ulu öndərin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin gərgin səyləri nəticəsində ölkəmiz yeni informasiya müstəvisinə qədəm qoydu. Ermənistanın əvvəlki illərdə olduğu kimi, yenə də xarici havadarlarının köməyi ilə münaqişə haqqında dünyada yalan informasiya verməsinin qarşısı alındı. Bu gün uğurlu xarici siyasət nəticəsində ermənilər öz yalan, riyakar və ikiüzlü siyasətini beynəlxalq ictimaiyyətə sırımaqda acizdirlər.

Son illərin hadisələri də təsdiqləyir ki, Ermənistan Azərbaycana qarşı işğalçılıq siyasətini təkcə qoşunların təmas xəttində, hərbi müstəvidə deyil, həm də informasiya sahəsində aparırdı. Dünya təcrübəsi də təsdiqləyir ki, müharibədə qələbəni təkcə döyüş bölgəsində deyil, həm də informasiya cəbhəsində qazanılan uğurlar təmin edir. Azərbaycan hələ əks-hücum əməliyyatından əvvəl Ermənistan tərəfindən törədilən ardıcıl təxribatları və erməni yalanlarını sistemli şəkildə, bütün mümkün vasitələrdən istifadə etməklə beynəlxalq arenada ifşa etməyi bacardı. 2020-ci il iyul təxribatından əvvəl və sonra Prezident İlham Əliyev bütün beynəlxalq platformalarda Ermənistanın işğalçı siyasətini ifşa etdi, düşmən ölkənin Azərbaycana qarşı yeni işğal planları qurduğunu faktlarla sübuta yetirdi.

Sentyabrın 27-də Ermənistanın növbəti təxribatı nəticəsində bərpa olunan hərbi əməliyyatlar dövründə Prezident İlham Əliyev dünyanın nüfuzlu televiziya kanallına müsahibələrində Ermənistanın baş naziri Nikol Paşinyanın müharibə planı barədə dünya ictimaiyyətini məlumatlandırmışdı. Dövlətimizin başçısı videoformatda keçirdiyi beynəlxalq tədbirlərdə Ermənistanın işğalçı siyasətindən əl çəkmədiyi barədə ətraflı məlumat vermişdi. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixi, səbəbləri, hazırkı vəziyyəti, habelə Azərbaycanın mövqeyini əsaslandıran hüquqi, siyasi, mənəvi və digər amilləri bir daha dünya ictimaiyyətinin diqqətinə çatdırmış, Azərbaycanın haqlı mövqeyinin təkzibolunmaz faktlarla əsaslandırmışdı. Ermənistanın erməni lobbisi və xaricdəki havadarlarının köməyi ilə yenidən özü üçün münbit informasiya mühiti yarada biləcəyi xülyası alt- üst oldu. Çünki ölkəmizin rəhbəri dünyanın aparıcı televiziya kanallarına verdiyi müsahibələrində erməni məkri, Nikol Paşinyanın faşizm ideologiyasına sadiqliyi, nasizmə hüsn-rəğbəti barədə faktlara əsaslanaraq məlumat vermişdu. Prezident İlham Əliyevin BMT Baş Assambleyasının 75-ci sessiyasında iştirakı da daxil olmaqla çıxışları və irəli sürdüyü əsas tezislərin yenidən diqqətə gətirilməsi Ermənistanın iç üzünü bir daha ifşa etdi.

Dövlət başçımız "CNN International", "CNN-Türk", "Sky News", "Euronews", "Əl-Cəzirə", "Əl-Ərəbiyə" kimi dünyanın əsas televiziya kanallarına, o cümlədən Türkiyənin nüfuzlu "TRT Haber", "Haber türk", Rusiyanın aparıcı "Rossiya-1", "Pervıy Kanal", RBK, habelə "France 24" və digər televiziya kanallarına müsahibələrində ermənilərin işğalçı siyasəti, mülki əhalini hədəfə alması, münaqişənin dinc vasitələrlə nizamlanmasından boyun qaçırması, humanitar atəşkəs rejimini pozması və qadağan olunmuş silahlardan dinc əhalini qətlə yetirməsi barədə ətraflı məlumat verməsi Ermənistanı və onun riyakar baş nazirini çətin duruma salıb. Ölkə başçısı Ermənistanın yalan üzərində qurulmuş informasiya maşınına ağır zərbələr vurub. Bu müsahibələrdən sonra artıq erməni yalanlarına inanan yoxdur. Çünki işğalçı ölkənin baş naziri öz xalqını aldadır, guya bu müharibədə qələbə qazandıqları, Azərbaycan Ordusuna ağır zərbələr vurulması barədə yalan məlumatlar verirdi. Ancaq ölkə başçımız "France 24" televiziya kanalına müsahibəsində Paşinyanın dediklərini alt-üst etdi: "Əlbəttə, bildiyiniz kimi, biz başqa mənbələrdən olan dronlardan da istifadə edirik. Biz artilleriyadan istifadə edirik, geniş çeşiddə hərbi avadanlıqdan istifadə edirik. Lakin təkcə dronlar Ermənistana 1 milyard dollar ziyan vurub. Bu, onlar üçün ciddi ziyandır. Mənə maraqlıdır onlar bütün bu avadanlığı almaq üçün bu qədər pulu haradan tapıblar, çox güman ki, onu pulsuz əldə ediblər".

## Heydər Əliyev Fondunun ölkəmizin dünya informasiya məkanında möhkəmləndirilməsinə töhfələri

Azərbaycanın yeni informasiya müstəvisində öz mövqeyini möhkəmləndirməsində, ölkəmizin üzləşdiyi problemlər barədə gerçəkliklərin dünya ictimaiyyətinə çatdırılmasında Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın yorulmaz fəaliyyəti xüsusilə qeyd edilməlidir. Birinci xanımım "Instagram"səhifəsindəki paylaşımlarında baş verən hadisələr, erməni terroru, barbarlığı, mülki əhalini hədəfə alması barədəki məlumatlar Ermənistanın işğalçı siyasətindən əl çəkmədiyini dolğun ehtiva edir. Birinci vitse-prezidentin bugünlərdə rəsmi "Instagram"səhifəsindəki paylaşımı da diqqəti cəlb edir. Paylaşımda deyilir: "Nə dərəcədə insaniyyətdən kənar, rəhmsiz və mənəvi tənəzzülə uğramış olmalısan ki, dəfn mərasimi zamanı qəbiristanlığı qəsdən atəşə tutasan? Dünya ictimaiyyətini Ermənistanın müharibə cinayətlərini qınamağa çağırıram. Həlak olanların ailələrinə və doğmalarına başsağlığı verirəm. Allah rəhmət eləsin!".

Son illər Bakıda keçirilən beynəlxalq tədbirlərin, bu tədbirlərdə xarici kütləvi informasiya vasitələri nümayəndələrinin iştirakı da Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında mühüm rol oynayır. Bu baxımdan, Heydər Əliyev Fondunun təşəbbüsü ilə ölkəmizdə və onun hüdudlarından kənarda keçirilən beynəlxalq tədbirlərdə dünyanın nüfuzlu informasiya qurumlarının nümayəndələrinin iştirakını xüsusi qeyd etmək lazımdır. Fondun təşəbbüsü ilə ölkəmizdə keçirilən mədəniyyətlər və sivilizasiyalararası dialoqlar, humanitar forumlar, beynəlxalq musiqi festivalı və elmi simpoziumlar, xarici ölkələrdə Azərbaycan mədəniyyəti günləri və digər tədbirlər Azərbaycanın dünya informasiya məkanında möhkəmlənməsinə layiqli töhfələr vermişdir. Bu tədbirlərdə geniş oxucu auditoriyası olan aparıcı kütləvi informasiya vasitələrinin, habelə televiziya kanallarının nümayəndələrinin iştirakı informasiya cəbhəsində qələbə qazanılmasında əhəmiyyətli rola malikdir. Bu tədbirlər Azərbaycan həqiqətlərinin yayılması, qarşılıqlı əməkdaşlığın genişləndirilməsi üçün geniş meydan açmışdır.

## Kiminə sevincli, kiminə kədərli informasiyalar

Son günlər xalqımız sevincli, qələbə soraqlı informasiyaları eşitməyə artıq öyrəşir. Hər axşam Prezident İlham Əliyevin "Twitter" səhifəsindən qələbə müjdəli xəbərlərin veriləcəyini səbirsizliklə gözləyirik. Sentyabrın 27-dən indiyədək xeyli yaşayış məntəqəsinin, o cümlədən rayon, şəhər və qəsəbələrin düşməndən azad edilməsi barədə informasiyaları eşitmişik. Hadisələrin gedişi göstəri ki, qələbə soraqlı informasiyaları bundan sonra daha tez-tez eşidəcəyik. Prezident İlham Əliyev oktyabrın 15-də Türkiyənin NTV televiziyasına müsahibəsində də bunun mesajını verdi. Dedi ki, son hədəfimiz dəyişməz olaraq qalır. Azərbaycanın beynəlxalq təşkilatlar, dünya birliyi tərəfindən tanınmış ərazi bütövlüyü, torpaq bütünlüyü təmin edilməlidir.

Dövlət başçısı bildirdi ki, Azərbaycan döyüşləri dayandıra bilər: "Biz döyüş meydanında durmağa hazırıq, əgər Ermənistan buna hazır olarsa və bizə təqvim verilərsə, biz sabah dayanmağa hazırıq. Ancaq ümumilikdə, biz dayanmayacağıq. Biz istəyirik ki, hərbi mərhələ siyasi mərhələyə çevrilsin. Ermənistan buna hazırdırsa və beynəlxalq təşkilatlar və böyük dövlətlər Ermənistanı inandıra bilərsə, bu, daha tez bir zamanda olacaq. Yox, bunlar mümkün olmasa, o zaman Azərbaycan Ordusunun zəfər yürüşü davam edəcək".

Erməni xalqı isə kədərli informasiyalar eşitməyə məhkumdur. 2016-cı ilin Aprel döyüşlərindən başlayan bu xəbərlər bu il sentyabrın 27-dən daha da intensivləşib. Təcavüzkarlar işğal etdikləri Azərbaycan ərazilərini azad etməyənə qədər qulaqları yalnız kədərli informasiyalar eşidəcək.

*Əliqismət BƏDƏLOV,*
*"Xalq qəzeti"*